Hörmətli Qonşum,

Salam, Mənim adım Cavidandır. Mən Qafqazın ən boyük şəhəri olan Bakıda yaşayıram. Çox qəribədir, mən daha öncə Erməniləri görmüşəm , bildiyin kimi, bu gün belə Azərbaycanda 20 mindən çox Erməni yaşayır, bunların əksəriyyəti Bakı və Sumqayıtda yaşayırlar. Bundan əlavə, Türkiyə və Ərəb ölkələrində yaşayan Erməniləri də görmüşəm. Ama bu gün ilk dəfə Ermənistanda yaşayan birisinə, yəni sənə məktub yazıram.

Bildiyin kimi artıq 30 ildən çoxdur ki, aramızdakı münaqişə davam edir. Müharibələri başlatmaq çox asandır, lakin bitirmək isə çox çətin. Sənə sual vermək istərdim, dünyada övladın ata və anasını itirməsindən daha dəhşətli nə ola bilər? Və yaxud, böyüyüb başa çatdığın torpaqlara həsrət qalmaqdan daha faciəvi nə var? Məşhur ərəb filosofu İbn Haldunun gözəl bir sözü var, "Coğrafiya millətlərin alın yazısıdır". Bizim xalqlarımız əsrlərcə yanbayan qonşu olaraq yaşayıblar. Məşhur erməni şair Sayat Nova həm erməni, həm də türkcə əsərlər yazıb.

Hörmətli qonşum, sənə bir neçə sual vermək istərdim. Səncə də əcdadlarımızın arasında olan və bizə ötürülmüş olan bu münaqişəyə bir son verməyin vaxti gəlməyibmi? Gəl bir saniyəliyinə də olsa qırağa çəkilək və baxaq, bu münaqişədən kim qazanır, kim uduzur? Əminəm ki, sən də mənim kimi görəcəksən ki, bu münaqişə iki tərəfə də ziyan verir. Onda belədirsə, niyə biz buna son qoymayaq, niyə barışmayaq? Əlbəttə, millətlərimizi barışdırmaq asan olamayacaq, amma haradansa başlamalıyıq, uşaqlar atasız–anasız qalmasın deyə, ölkələrimiz talan olmasın deyə, sülh üçün nəsə etməliyik ya yox ? Əvvəlcə bir birimizə salam verməyi, sonra bir birimizi gördükdə gülümsəməyi, bir vaxtdan sonra bir birimizin evlərinə gəlib getməyi və sairə– keçmişdəki kimi yenə mehriban qonşu olmağa çalışmamalıyıqmı?

Mənim nənəm əslən Ermənistanın indiki Sunik bölgəsinin Sisyan şəhərindəndir, nənəm Azərbaycana 60–cı illərdə gəlib. Mənim dostlarımın çoxunun əsli Qafan, Sisyan , Masisdən gələn Azərbaycanlılardır. Mənə oraların Sevanın və saydığım bütün bu yerlərin necə gözəl olduğunu danışırlar hər dəfə. Mən də əlbəttə çox istərdim dostlarımın danışdığı yerləri görmək. Xarici ölkələrdə olarkən bir çox kəz Azərbaycanda yaşamış erməniləri görürəm, hər dəfə Bakıdan və yaxud Gəncədən danışırlar və dönmək istədiklərini bildirilər.

Məktubumu bitirərkən, müharibəsiz sülh və tərəqqi içində bir dünya diləyi ilə.

Cavidan